**AZƏRBAYCAN RESPUBLİKASI**
**İCBARİ TİBBİ SIĞORTA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN**

# İDARƏ HEYƏTİNİN QƏRARI

№ 33

**Bakı şəhəri** "30" dekabr 2020

**Azərbaycan Respublikasının inzibati ərazi vahidləri üzrə tibbi ərazi bölmələrinin təsdiq edilməsi haqqında**

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 2019-cu il tarixli 898 nömrəli Fərmanının 5.1-ci bəndinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi"nin 4.5.21.-ci yarımbəndi rəhbər tutaraq, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti

**Qərara alır:**

1. "Azərbaycan Respublikasının inzibati ərazi vahidləri üzrə tibbi ərazi bölmələri" təsdiq edilsin.
2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 21 yanvar 2020-ci il tarixli 3 nömrəli Qərarı ləğv edilsin.
3. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin struktur bölmələrinin və filial rəhbərlərinin, "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin və onun tabeliyində olan tibb müəssisələrinin rəhbərlərinin bu qərarla tanış edilməsi Vətəndaş müraciətləri və sənədlərlə iş departamenti (E.Mikayılov) tərəfindən təmin edilsin.
4. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinə tapşırılsın ki, sığortaolunanlar tərəfindən "Tibbi sığorta haqqında" Azərbaycan Respulikasının Qanununda nəzərdə tutulmuş müştərək maliyyələşmə məbləğlərinin ödənilməsi zamanı bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş tibbi ərazi bölmələri nəzərə alınsın.
5. Bu Qərarın icrasına ümumi nəzarəti öz üzərimdə saxlayıram.
6. Bu Qərar 1 yanvar 2021-ci il tarixdən qüvvəyə minir.

İdarə Heyətinin sədri Zaur Əliyev

M.Y.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin "30" "oktyabr" 2020-ci il tarixli "33" nömrəli Qərarı ilə təsdiq edilmişdir.

| № | Tibbi ərazi bölməsi | Tibbi ərazi bölməsinə daxil olan dövlət tibb müəssisələri | Tibbi ərazi bölməsinin regionlararası dövlət tibb müəssisəsi |
|---|---|---|---|
| 1. | Bakı şəhəri tibbi ərazi bölməsi | Bakı şəhəri ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | - |
| 2. | Sumqayıt şəhəri tibbi ərazi bölməsi | Sumqayıt şəhəri, Abşeron və Xızı, rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | - |
| 3. | Şəmkir-Tovuz tibbi ərazi bölməsi | Şəmkir, Tovuz, Gədəbəy, Qazax və Ağstafa rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Şəmkir rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |
| 4. | Gəncə şəhəri tibbi ərazi bölməsi | Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Samux, Göygöl, və Goranboy rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | - |
| 5. | Şəki-Zaqatala tibbi ərazi bölməsi | Şəki, Balakən, Zaqatala, Qax, Oğuz və Qəbələ rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Şəki rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |
| 6. | Lənkəran tibbi ərazi bölməsi | Lənkəran, Lerik, Masallı, Yardımlı və Astara rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Lənkəran rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |
| 7. | Cəlilabad-Salyan tibbi ərazi bölməsi | Cəlilabad, Salyan, Biləsuvar, Neftçala rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Cəlilabad rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |
| 8. | Quba-Xaçmaz tibbi ərazi bölməsi | Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Quba rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |
| 9. | Göyçay-Kürdəmir tibbi ərazi bölməsi | Göyçay, Kürdəmir, Ucar və Zərdab rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Göyçay rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |
| 10. | İmişli-Sabirabad tibbi ərazi bölməsi | Şirvan şəhəri, İmişli, Sabirabad, Saatlı və Hacıqabul rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Şirvan şəhər Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |
| 11. | Ağdam-Ağcabədi tibbi ərazi bölməsi | Ağdam, Ağcabədi, Beyləqan, Füzuli rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Ağcabədi rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |

| | | | |
|---|---|---|---|
| 12. | Bərdə -Yevlax tibbi ərazi bölməsi | Mingəçevir şəhəri, Yevlax, Ağdaş, Bərdə və Tərtər rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Mingəçevir şəhər Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |
| 13. | Dağlıq Şirvan tibbi ərazi bölməsi | Şamaxı, İsmayıllı, Qobustan və Ağsu rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Şamaxı rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |
| 14. | Qarabağ tibbi ərazi bölməsi | Xankəndi şəhəri, Şuşa, Kəlbəcər, Xocalı, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd və Laçın rayonları ərazisində fəaliyyət göstərən dövlət tibb müəssisələri | "Şuşa rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxs |